yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur









2 KİTAB MAĞAZASI OLMAYAN ŞƏHƏR

3 SƏRHƏDLƏRİNİ TERRORÇULARDAN TƏMİZLƏMƏKTÜRKİYƏNİN TAM HÜQUQUDUR

4 BİRLİKDƏN RƏHMƏT DOĞAR

5 MANANA RATİANİ İLƏ MÜSAHİBƏ

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

28 FEVRAL 2018-Cİ İL

№002 (61)

## PREZİDENT MARNEULİYƏ VƏ BOLNİSİYƏ SƏFƏR EDİB



26 fevral tarixində yeni başlamış "Müstəqillikdən azadlığa doğru – respublikanın 100 illiyi" adlı kampaniya çərçivəsində Gürcüstan prezidenti Giorgi Marqvelaşvili Marneuliyə səfər edib və yerli sakinlərlə, qeyri-hökumət təşkilatı nümayəndələri ilə görüşüb.

Gürcüstan prezidenti tərəfindən başladılmış "Müstəqillikdən azadlığa doğru – respublikanın 100 illiyi" kampaniyasının məqsədi gürcü dövlətçiliyinin qarşısında duran problemlər və təhlükələrlə bağlı gənclərin məlumatlandırılmasıdır.

Bu il müstəqilliyin bərpasından 100 il ötür. Bu tarixlə bağlı Gürcüstan prezidenti 2018-ci ili azadlıq ili olaraq elan edib və qeyd olunan tarix cari ilin 26 mayında təntənəli şəklində qeyd olunacaq.

Prezident görüş zamanı Marneulinin "Mülki Məşğulluq Mərkəzində" toplanmış yerli əhaliyə müraciət edib və onları aktiv şəkildə Gürcüstan müstəqilliyinin 100 illiyi ilə əlaqədar planlaşdırılan təntənəli bayram tədbirlərinə qoşulmağa çağırıb.

(davamı 2-ci səhifədə)

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ BAŞ NAZİRLƏRİ MÜNHENDƏ GÖRÜŞÜBLƏR

Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili 54-cü Münhen Təhlükəsizlik Konfransı çərçivəsində türkiyəli həmkarı Binəli Yıldırımla görüşüb. Görüşdə ikitərəfli ticari-iqtisadi münasibətlərin müsbət dinamikası müzakirə olunub.

Tərəflər regional enerji və nəqliyyat layihələri çərçivəsində əməkdaşlığa da toxunublar. Bu kontekstdə Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti vurğulanıb.

Baş nazirlər, həmçinin regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə qeyd olunub ki, G. Kvirikaşvili bu ilin birinci yarısında Türkiyədə keçiriləcək Gürcüstan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının görüşündə iştirak edəcək.



Görüşdə Türkiyə tərəfi Gürcüstanın Avroatlantik məkana inteqrasiyasına dəstək olduğunu bir daha vurğulayıb.

## ƏRDOĞAN: "DÜNYADA VƏHŞİ QƏTLİAM ARAYAN VARSA, BU, XOCALIDIR"

"Xocalı faciəsində şəhid edilən azərbaycanlı qardaşlarımızı rəhmətlə yad edirik".

Bu sözləri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) parlament qrupunun toplantısında çıxış edərkən deyib.

R. T. Ərdoğan Xocalı şəhərində qətlə yetirilən azərbaycanlılara rəhmət diləyib: "Dünyada vəhşi qətliam arayan varsa, bu, Xocalıdır. İnsanlıq tarixinin ən böyük zülmlərindən biri Xocalıda yaşanıb. Xocalı qatillərinə hökm kəsən ölkə gördünüzmü? Türk, müsəlmandırsa, həmin ölkələr bunu görmürlər. Biz isə Xocalı qətliamını unutmadıq, unutmayacaq və xatırladacağıq".

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ AZAD TİCARƏTLƏ BAĞLI SAZİŞİ GENİŞLƏNDİRMƏYƏ QƏRAR VERİBLƏR



Gürcüstan İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin məlumatına görə, Gürcüstan və Türkiyə azad ticarətlə bağlı sazişin genişləndirilməsinə dair razılığa gəliblər. Razılaşmadan sonra gürcü limonu, kivi, üzüm, quru meyvə və digər məhsullar üçün Türkiyədə təyin olunmuş kvotalar ləğv olunub.

"Danışıqlar nəticəsində gürcü biznesinə 20%-lə Türkiyəyə ixracı artırmaq imkanı veriləcək", - deyə iqtisadiyyat və davamlı inkişaf naziri Dimitri Kumsişvili bildirib.

Nazirliyin bildirdiyinə əsasən, Türkiyədə tələbatın çox olduğu bal kimi məhsullara kvotalar artırılıb. Həmçinin qoyun, keçi və iri buynuzlu mal-qaraya dair kvotalar da artıb.

## DİMİTRİ KUMSİŞVİLİ TÜRKİYƏYƏ SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ "ÇALIK ENERJİ"NİN RƏHBƏRİ İLƏ GÖRÜŞÜB

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Dimitri Kumsişvili Türkiyə Cümhuriyyətinə səfəri çərçivəsində energetika holdinqi "Çalık Enerji"nin təsisçiləri və rəhbəri Ahmet Çalıkla görüşüb. Nazirin qeyd etdiyinə görə, Ahmet Çalık Gürcüstanda, konkret olaraq Şida Kartlidə 50 meqavatlıq gücü olan külək elektrik stansiyaları inşa edəcəkləri və 75 milyon dollar həcmində investisiya həyata keçirəcəkləri vədini verib.

Külək elektrik stansiyası layihəsini "Çalık Enerji" ilə birgə Gürcüstanın Energetikanın İnkişafı Fondu həyata keçirəcək.

D. Kumsişvili həmçinin Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Ahmet Arslanla "Orta nəqliyyat dəhlizi"nin Gürcüstan, Azərbaycan və Türkiyə tərəfindən birgə inkişafı və populyarlaşdırılması haqqında da söhbət aparıblar. Kumsişvili qeyd edib ki, "Orta nəqliyyat dəhlizi"nin inkişafı bütün region üçün vacibdir və bu, digər alternativ dəhlizlərlə müqayisədə Çindən Avropaya qədər olan qısa marşrutdur.



# KİTAB MAĞAZASI OLMAYAN ŞƏHƏR

**Azər Musaoğlu**
*azermusaoghlu@gmail.com*

**Gürcüstanda təxminən 75-dən artıq kitab mağazası var (4 milyondan çox əhalisi olan ölkə üçün bu da azdı). Onlardan 57-si 2008-ci ildən Tbilisidə kiçik bir kitab dükanı kimi fəaliyyətə başlayan "Biblus" kitab mağazaları şəbəkəsinə aiddir. İndi isə təkcə Tbilisi şəhərində "Biblus"un 26 mağazası fəaliyyət göstərir. Uzağa getmirəm, Rustavi şəhərinin içi ilə keçib Qardabaniyə gəlirəm. Rustavidə üç kitab mağazası var. Onlardan ikisi "Biblus" kitab mağazaları şəbəkəsinindir. Yolüstü sağ tərəfə nəzər yetirirəm. Oxucu üçün cənnət məkan olan bu "Biblus"dan birini də Marneulidə görürəm. Bu çox sevindirici haldır. Gəlib çatdıq Qardabaniyə.**

Ötən yazıda da ürək ağrısı ilə qeyd etdiyim kimi, Qardabanidə bir dənə də olsun kitab mağazası yoxdur. Qardabani oxucusunun günahı nədir ki, öz şəhərində "Biblus"un qapısını açıb kitablarla dolu cənnət məkana girmək ona qismət deyil. Nəyə görə ölkənin demək olar ki, bütün şəhərlərində filialları olan "Biblus" kitab mağazasının Qardabanidə heç olmasa yarım filialı belə yoxdur? Bilirəm, bu suala hərə bir kinayəli cavab verəcək. Hələ, "camaatın problemi boğazdan yuxarı, bunun da dərdi kitab mağazasıdır" deyənlər də yetərincə olacaq, "camaatda kitaba verməyə pulmu var" deyənlər də. Halbuki "boğazdan yuxarı" olan o problemlərdən bir neçəsini, bəlkə də hamısını kitab oxumaqla həll etmək də olar, kitaba verməyə pul tapmaq da. Cavab verənlərin arasında "oxumaq istəyən kitabxanalara gedər, lap elə istədiyi kitabı Tbilisi ya Rustavidəki mağazalardan da ala bilər" deyənlər də olacaq. Amma məsələ bununla bitmir. Məsələyə bu məntiqlə yanaşsaq, o zaman yaşamaq istəyən də İsveçrəyə getməlidir.

Kitab mağazasının Qardabanidə olmamasının səbəbkarı da daha çox Qardabani sakinləri – biz özümüzük. Düzdür, "Biblus" kimi şirkətlər üçün kiçik bir mağaza açmaq o qədər çətin olmasa da, bunun kommersiya tərəfi də var. Kitabı alınmayan mağaza heç bir kommersiya təşkilatının marağında deyil. Ümumiyyətlə, biz həmişə pessimistik düşünürük. Niyəsə hamı fikirləşir ki, kitab oxuyan yoxdur. Kitab oxuyan var, sadəcə sayı azdır deyə bilərik.

Bu yaxınlarda Qardabani Mədəniyyət evində fəaliyyət göstərən kitabxanaya yolum düşmüşdü. Kitabxana əməkdaşlarının verdiyi məlumata görə, bu il 300-ə yaxın, fevral ayında isə 150 oxucu kitabxanaya müraciət edib. Bu, heç də "kitab oxuyan yoxdur" demək deyil. 2015-ci ildə Gürcüstan Milli Kitabxanasının göstəricilərinə əsasən isə, Gürcüstanda 2 469 196 ədəd kitab satılıb. Bu da bir daha onu göstərir ki, "kitab oxuyan yoxdur" deyib bədbin notlara köklənməyə haqqımız yoxdur. İnanıram ki, Qardabanidə kitab mağazasının olması kitab oxuyanların sayını artıracaq, kitaba maraq yaradacaq. Qardabani oxucularının günahı isə, bəlkə də, "Biblus" kimi şirkətlərə müraciət etməmələrindədir.

Məsələn, mən "Biblus"un facebook səhifəsini izləyirəm. Səhifə (mağaza) hər həftə oxuculara (izləyicilərə) üç kitab təqdim edir. Həftənin endirimli kitabını oxucular özləri seçirlər və çox səs toplayan üç kitabdan biri bir həftə endirimli qiymətə satılır, yəni 20-30 larilik kitabları 4-5 lariyə almaq olur. Yaşadığım şəhərdə "Biblus" olmadığına görə çox vaxt bu fürsətdən istifadə edə bilmirəm, yalnız yolum Rustaviyə, Tbilisiyə düşəndə bu aksiyalardan yararlana bilirəm. Və əminliklə deyə bilərəm ki, təkcə mən bu vəziyyətdə deyiləm, bu yazını da öz dərdimi danışmaq üçün yazmıram. Biz də istəyirik yaşadığımız şəhərin "Aversi"si, "PSP"si, "Pharmadepot"u, "Saxalxo Aptiaki"si, "36.6"sı kimi "Biblus"u da olsun. Bir az da ruhumuzu müalicə edək. "Biblus"u olmayan şəhərin çayxanası, qumarxanası çox olar.

**Bu qloballaşan dünyanın Qardabanisində oturub kitab mağazasının yoxluğunu dərd etməyimə ağız büzüb gülənlərə isə demək istəyirəm ki, "biblus" latın dilində kağız deməkdir. "Biblus"u olmayan toplum isə cəhalətə məhkumdur.**

# PREZİDENT MARNEULİYƏ VƏ BOLNİSİYƏ SƏFƏR EDİB

*(əvvəli 1-ci səhifədə)*

"Bu il bayram üçün səbəbimiz var – ilk respublikanın 100 ili tamam olur. Bizim əcdadlarımız respublikanın, demokratik idarəçiliyin əsasını qoyublar, ilk konstitusiyanı qəbul ediblər, qadınlara seçkilərdə iştirak etmək hüququ veriblər, gələcək nəsillərin rəhbərlik edə biləcəyi baxışların əsasını qoyublar və bu prinsiplərə söykənərək sonradan yeni konstitusiya və müstəqil dövlət yaradıblar", – deyə Giorgi Marqvelaşvili vurğulayıb.

Prezidentin sözlərinə görə, yeni kampaniyanın məqsədi məhz gedişatın və inkişafın, keçilən yolun, müstəqilliyin yüz illik prosesinin analizidir.

Marneulidə əhali ilə görüşü zamanı Gürcüstan prezidenti eləcə də etnik azərbaycanlılar üçün assimilyasiya təhlükəsinin olub-olmaması barədə iştirakçıların sualına cavab olaraq konkret misal çəkməyi xahiş edib. O, hesab edir ki, belə hallara reaksiya göstərmək lazımdır.

"Gürcü dilini Azərbaycan dilini unudasınız deyə öyrətmirik. Ona görə öyrədirik ki, sənin fikrini televiziyadan öyrənə biləк, öna görə öyrədirik ki, sənin tərəfindən yazılmış hər hansı fikri dinləyə biləк. İstəyirik ki, sən ali məktəblərə daha asan qəbul olasan. Ona görə öyrətmək istəyirik ki, iqtisadi proseslərdə çətinlik çəkməyəsən və bu ölkənin güclü vətəndaşı olasan. Məhz buna görə də gürcü dilinin tədrisinə sərmayə qoyuruq ki, sən, mən və sənin qardaşların güclü Gürcüstan qura biləк. Bu, assimilyasiya deyil. Bu sizin vətəndaş kimi formalaşmağınız deməkdir. Əgər bunu etməsək, biz bir-birimizi başa düşə bilməyəcəyik. Çünki eyni dildə danışa bilməyəcəyik. Buna görə də, bu işə sərmayələr yatırılır və bu düzgün addımdır. Eyni zamanda sizin öz mədəniyyətinizi, adət-ənənənizi inkişaf etdirmək imkanınız olur. Mən belə hal eşitməmişəm. Kimsə sizə, misal üçün, yerli ansamblın, dərnəklərin yaradılmasını qadağan edibmi? Sizə heç kəs öz mədəniyyətinizi qorumağı qadağan etmir. Əksinə, müəyyən dəstək də göstərilir. Azərbaycan əsilli Gürcüstan vətəndaşları gürcü dilini mütləq öyrənməlidirlər. Mütləq fəal gürcüstanlı biznesmen, iqtisadçı, siyasətçi, mədəniyyət xadimi, jurnalist olmalıdırlar. Bu mütləqdir, çünki bizə vahid dövlət lazımdır", - deyə Marqvelaşvili vurğulayıb.

Prezident Marneuli əhalisi ilə söhbəti zamanı bildirib ki, 26 may tarixində Gürcüstanın müstəqillik günü bayramını birgə qeyd edəcəyik və Avropa ölkələri, onların liderləri də bizə qoşulacaqlar. Bu tarix Gürcüstanın nə dərəcədə dəstəkləndiyini və ölkənin nə qədər dostu olduğunu, hansı məqsədlərə doğru hərəkət etdiyini göstərən bir tarix olacaq.

Giorgi Marqvelaşvili Marneulidən sonra Bolnisidə etnik azlıqların "Gürcü dilini öyrənək" proqramının iştirakçıları ilə də görüşüb. "Gürcü dilini öyrənək" layihəsi Gürcüstan prezidentinin Rezerv Fondunun maddi dəstəyi ilə 2015-ci ildən İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti ilə əməkdaşlıqla həyata keçirilir. Layihə çərçivəsində etnik azlıqların sıx məskunlaşdığı regionlarda – Kvemo Kartli, Kaxeti, Samtsxe-Cavaxeti, Tbilisidə Tbilisi Dövlət Universitetinin alim-müəllimləri, magistrantları və doktorları dövlət dilini və konstitusiyanın əsaslarını inteqrasiya üsulları ilə etnik azlıq nümayəndələrinə öyrədirlər.

"Dil barieri heç kimə ölkənin inkişafına öz qatqısını verməyə mane olmamalıdır. Siz dövlət dilində danışmaqla öz şəxsi imkanlarınızı gücləndirirsiniz və öz imkanlarınızla Gürcüstanı gücləndirirsiniz. Sizin uğurunuz ölkənin uğurudur. Gürcü dili ilə birgə konstitusiyanın prinsiplərini də öyrənirsiniz. Prinsiplər isə deyir ki, siz Gürcüstan vətəndaşısınız. Məhz gürcü, azərbaycanlı və ermənilərin birgə dayanması dövlətimizin gücüdür", - deyə Marqvelaşvili vurğulayıb.

Qeyd edək ki, 2015-2017-ci illər ərzində layihə 3 regionun 11 bələdiyyəsinin 79 kəndində həyata keçirilib. Üç il ərzində layihədə 6688 nəfər iştirak edib və onların 80%-i sertifikat alıb.

*Hazırladı: Aynurə Əliyeva*

# KUMSİŞVİLİ VƏ ƏLİYEV İKİ ÖLKƏNİN İQTİSADİ ƏLAQƏLƏRİNƏ DAİR VACİB MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİBLƏR

Gürcüstanın iqtisadiyyat və davalı inkişaf naziri Dimitri Kumsişvili Bakıda səfərdə olub. Nazir Cənub Qaz Dəhlizinin müşavirlər üzrə şurasının 4-cü ministerialında iştirak edib. Səfər çərçivəsində Dimitri Kumsişvili Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə görüşüb. Bu haqda məlumatı nazirlik yayımlayıb.



Görüşdə Gürcüstan və Azərbaycan arasında mövcud olan sıx əməkdaşlıq əlaqələrindən, iqtisadi sahədəki münasibətlərdən söhbət açılıb. Kumsişvili qeyd edib ki, iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin artıq neçə əsrlik tarixi var və münasibətlər daha da inkişaf edir. Bunda isə Azərbaycan prezidenti İlham Əliyevin böyük rolu var.

Dimitri Kumsişvili görüşdə Azərbaycanın son illər ərzində Gürcüstanın ən böyük ticari ortaqlarından biri olduğunu və Gürcüstanda həyata keçirilən investisiyalarda vacib hissələrdən birini məhz Azərbaycandan daxil olan investisiyaların tutduğunu vurğulayıb. Nazir Gürcüstan-Azərbaycan əməkaşlığında Bakı-Tbilisi-Qars dəmiyolu magistralı, "Cənub Qaz Dəhlizi" və.s kimi layihələrin əhəmiyyətini də diqqətə yetirib. Görüşdə ölkələr arasında turizm sahəsində gedən uğurlu əməkdaşlıqdan və bu istiqamətdə mövcud olan perspektivlərdən də söhbət açılıb.

Dimitri Kumsişvili 2018-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranmasının 100 illiyinin qeyd olunması mövzusunda da söhbət aparıb və prezident İlham Əliyevi bu əhəmiyyətli bayram münasibəti ilə təbrik edib. Həmçinin 2018-ci ilin 26 may tarixində Gürcüstanın da müstəqilliyinin 100 illiyi qeyd olunacaq. Bayram tədbirinə prezident İlham Əliyev də dəvət olunub.

# TÜRKİYƏNİN KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ GÜRCÜSTAN TEXNİKİ UNİVERSİTETİNƏ 300 FİLM VERİB

Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi Gürcüstanda kənd təsərrüfatının davamlı inkişafı məqsədi ilə 300 ədəd aqrar tədris filmini təmənnasız olaraq Gürcüstan Texniki Universitetinə verib. Türkiyə Baş Nazirinin Administrasiyasında fəaliyyət göstərən Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə filmlər gürcü dilinə tərcümə olunub və səsləndirilib.

# ƏRDOĞAN: "TÜRKİYƏ SURİYADA TERRORÇULARI TAMAMİLƏ MƏHV EDƏCƏK"



Terrorçular üçün dayaq nöqtəsi hesab olunan Afrin şəhərinin mərkəzi yaxın günlərdə Türkiyə ordusu tərəfindən mühasirəyə alınacaq.

Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib.

O qeyd edib ki, Afrinin mühasirəsindən sonra terrorçular Suriyanın digər regionlarından gələn dəstəkdən tam təcrid olunacaq.

R.T.Ərdoğan onu da əlavə edib ki, Türkiyə "Zeytun budağı" əməliyyatını başlamağa məcbur idi: "Türkiyə Suriyada terrorçuları tamamilə məhv edəcək".

# TÜRKİYƏ BAŞ NAZİRİ: "SURİYADA TERRORÇULAR RUSİYA VƏ ABŞ İSTEHSALI OLAN SİLAHLARDAN İSTİFADƏ EDİRLƏR"



"Ankara Suriyada müharibə aparmır, söhbət terrorçuluqla mübarizədən gedir". Bunu 54-cü Münhen Təhlükəsizlik Konfransında çıxış edən Türkiyə baş naziri Binəli Yıldırım bəyan edib.

"Suriyada müharibə yoxdur. Bu, terrorçuluqla mübarizədir. Bu mübarizədə Türkiyə ilə yanaşı koalisiya tərkibində 62 ölkə, habelə Rusiya və İran iştirak edir", - deyə nazir vurğulayıb.

Binəli Yıldırım onu da qeyd edib ki, Suriya və İraqda bir terror təşkilatı zərərsizləşdirilsə də, hazırda terrorçular yeni ad altında birləşiblər. Onun sözlərinə görə, terrorçular qanunsuz yolla, o cümlədən internet vasitəsi ilə əldə etdikləri Rusiya və ABŞ istehsalı olan silahlardan istifadə edirlər.

# TÜRKİYƏ, İRAN, RUSİYA XİN RƏHBƏRLƏRİNİN GÖRÜŞÜNÜN TARİXİ MƏLUM OLUB

Türkiyə, İran və Rusiya xarici işlər nazirlərinin görüşü martın 14-də Qazaxıstanın paytaxtı Astanada keçiriləcək.

Bu barədə Türkiyə hökumətinin sözçüsü Bəkir Bozdağ bildirib.

"Türkiyə, İran və Rusiya XİN rəhbərlərinin Suriya üzrə üçtərəfli görüşü martın 14-də Astanada baş tutacaq", - deyə B. Bozdağ qeyd edib.

Onun sözlərinə görə, aprelin əvvəlində Türkiyə prezidenti R.T.Ərdoğan və Rusiya dövlət başçısı Vladimir Putin arasında görüşün keçirilməsi planlaşdırılır.

"Bundan sonra Suriya üzrə Rusiya-Türkiyə-İran zirvə toplantısının keçiriləcəyi gözlənilir", - deyə B.Bozdağ əlavə edib.

# SON ALTI İLDƏ 540 MİNDƏN ÇOX İNSAN RUSİYADAN DEPORTASİYA EDİLİB



2012-2017-ci illərdə 2 milyondan çox vətəndaş Rusiya qanunvericiliyini pozduğuna görə Rusiyanın hakimiyyət orqanları onların bu ölkəyə gəlişinə qadağa qoyub, 540 mindən çox insan Rusiyadan deportasiya edilib.

Rusiya Daxili İşlər Nazirliyinin Miqrasiya məsələləri üzrə Baş idarəsinin rəis müavini Valentina Kazakova bu məlumatları Dövlət Dumasının MDB məsələləri Komitəsinin iclasında səsləndirib.

V. Kazakovanın sözlərinə görə, bu illər ərzində 14 milyondan çox əcnəbi vətəndaş daktiloskopik müayinədən keçirilərək fotoşəkilləri çəkilib. Bu prosedur əcnəbi vətəndaşların ölkəyə gəlişi zamanı həyata keçirilməlidir ki, məsələn, yol hərəkəti qaydalarını kobud şəkildə pozan insanlar yenidən Rusiyaya gələ bilməsinlər.

"Yol hərəkəti qaydalarının və miqrasiya qanunvericiliyinin pozulmasına görə bu kateqoriyaya aid şəxslərin ölkəmizə gəlişinə imkan verilmir. Lakin insanlar özlərinə aid müəyyən məlumatları dəyişdirərək ölkəyə gələ bilərlər. Buna görə də biz deyirik ki, daktiloskopiya proseduru RF-yə gələrkən, yəni sərhəddə həyata keçirilməlidir", - deyə V. Kazakova bildirib.

# SƏRHƏDLƏRİNİ TERRORÇULARDAN TƏMİZLƏMƏK TÜRKİYƏNİN TAM HÜQUQUDUR



Sahib Mustafa
*sahib1975.sm@gmail.com*

**Hazırda dünyanın xəbər gündəmini zəbt edən mövzulardan yəqin ki, ən başlıcası Türkiyə Silahli Qüvvələri və Azad Suriya Ordusunun Suriyanın şimalında "Zeytun budağı" adı altında apardığı anti-terror əməliyyatıdır. Vurğulamaq lazımdır ki, hər nə qədər qərb müttəfiqlərinin qıcığına gəlsə də Türkiyənin gələcəyi və beynəlxalq arenada nüfuzu bu əməliyyatdan asılıdır. Ankaranın belə bir addım atmasına ABŞ-ın Suriyanın Türkiyə ilə olan sərhəddində 30 min PYD və YPG yaraqlılarından ibarət "sərhəd mühafizə qruplaşması"nın yaradılması səbəb oluşdur. Əslində isə Ağ Evin əsl niyyəti Ankaranı birbaşa təhtid edərək Türkiyənin daxilində destabilizasiya vəziyyəti yaradıb hazırki iqtidarı kütləvi dəstəkdən məhrum olunmasına yönəlmişdir. 2015-ci ildə dövlət çevrilişi vasitəsi ilə Türkiyədə "panamerikan" yönümlü hakimiyyəti yaratmaq məqsədinə nail olmayan Vaşinqton və onun qərb müttəfiqləri Ankara ilə "soyuq savaş"ı alternativ platformaya daşımışdır. Digər tərəfdən Türkiyənin İran və Rusiya ilə münasibətlərinin düz müstəviyə çıxması Ankara ilə Qərb dünyası ilə yaranmış uçurumu daha da dərinləşdirməkdədir.**

Hazırda ABŞ Türkiyə ilə tarıma çəkilmiş münasibətlərini normallaşdırmaq üçün sözdə fəaliyyətdədir. Əməldə isə tam əks mövqe sərgiləməkdədir. Hər nə qədər olsa da Türkiyə NATO çərçivəsində ABŞ-ın müttəfiqidir. Lakin Vaşinqton siyasi kulislər arxasında Ankaraya qarşı yeni təzyiqlər paketi hazırlamaqdadır. Suriyada PYD kimi kürd terror qruplaşmalarını hər cür müasir silahlarla təchiz edərək Türkiyə ilə hibrid savaş içiərisindədir.

Ankaranın Vaşinqtona sərt notalarından sonra dövlət katibi Tillerson PYD-nin bundan sonra ABŞ tərəfindən silahlandırılmayacağını bəyan etdi. Digər tərəfdən rəsmi açıqlamalara görə, Vaşinqton Türkiyənin terror qruplaşması kimi dünyaya car etdiyi PYD təşkilatına bu il 500 milyon dollar yardım ayırır. Əgər indiyədək Ağ Ev kürd qruplaşmalarını DAEŞ-lə mübarizə apardığı üçün silahlandırırdısa, bəs artıq DAEŞ-in sonu gəldiyi bir vaxtda PYD-ni kimə qarşı silahlandırır? Üstəlik Afrin bölgəsi tamamilə PYD-nin nəzarəti altındadır və burada mübarizə aparılası "DAEŞ" də yoxdur. Cavab isə bəllidir – hədəfdə Türkiyə və İran var. Suriya, İran və Türkiyə ərazilərinin bəlli bir hissəsində kürd dövlətinin yaradılması Vaşinqtonun hədəfindədir. Bu baxımdan Pentaqonun PYD yaraqlıları üçün 2019-cu ildə 550 milyon dollar maliyyə yardımı ayırmasını nə ilə izah etmək olar? ABŞ-ın regionda qalıcı olmasını təmin etmək üçün ona yeni münaqişə mənbələri lazımdır.

Etiraf etmək lazımdır ki, ABŞ-la münasibətlərin tam qopma nöqtəsinə gəlməsi Türkiyənin da marağına uyğun deyil. Son günlərdə yaranmış gərginliyin aradan qaldırılması üçün Ankara-Vaşinqton arasında diplomatik intensivlik artmaqdadır. Türkiyəni ziyarət edəcək hərbi və siyasi fiqurların "portfel"lərindən çıxacaq təkliflər iki ölkə arasındakı münasibətlərin sonrakı axarına aydınlıq gətirəcəkdir. Hazırki vəziyyətdə Ankaranı ən çox narahat edən ABŞ-ın Türkiyənin yanında və yaxud önündə olması məsələsinə aydınlıq gətirilməsidir.

Bu arada, Avropa ölkələrinin də Türkiyəyə qarşı münasibəti ABŞ-dan fərqlənmir. Avropa İttifaqının qanunverici orqanı Avroparlamentin sözdə Kürdüstan bayrağı və Abdullah Öcalan portretlərinə bürünərək Türkiyənin apardığı "Zeytun budağı" əməliyyatını qınaması və əməliyyatın dərhal dayandırılmasını tələb etməsi bir ikiüzlülük nümunəsidir.

**Sərhədlərini terrorçulardan təmizləmək Türkiyənin tam hüququdur. Odur ki, Ərdoğan qərb müttəfiqlərinin fikirlərinə məhəl qoymayaraq və siyasi iradə nümayiş etdirib başlatdığı "Zeytun budağı" əməliyyatını məntiqi nəticəsinə çatanadək davam edəcəyini söyləmək olar. Artıq ABŞ bugünkü Türkiyənin yüz il bundan öncə son nəfəsini verən Osmanlı imperiyası olmadığını anlamalıdır.**



## BİRLİKDƏN RƏHMƏT DOĞAR

Hacı Bəkiroğlu
*hacibakir@mail.ru*

**Birlik və barabərlik ictimai gücü də özü ilə gətirir. Bu gücün önündəki ilk maneə isə "Eqo"dur. İnsan üçün də ən əhəmiyyətli problem mənliyinə məğlub olması, ətrafındakılarla bir olmağı bacara bilməməsi, nəfsini idarə edə bilməməsidir.**

Hamımız da bilirik ki, yer üzündəki ilk cinayət Qabilin qardaşı Habili qısqanması nəticəsində işlənmişdir. Bunun da arxasında "Mən", başqa bir ifadəylə "Eqo" durur. "Əvvəlcə mən" demək, qısqanclığın təməlini meydana gətirir. Çox vaxt özümüzü qüsursuz görərək başqalarına hirslənərik, tənqid edərik. Beləliklə də birlikdən uzaqlaşmağa doğru üz tutarıq. Bununla da insanı insana düşmən edən, Allahın istəklərinə zidd davranmasını istəyən şeytanın işi də asanlaşmış olar.

İnsan ictimai bir varlıq olaraq cəmiyyət içində yaşayır. Təkbaşına yaşaya bilməz. Təbiəti gərəyi digər insanlarla ünsiyyət və qarşılıqlı münasibət halındadır. Təsir müsbət isə insana və cəmiyyətə faydası vardır. Mənfilik vəziyyətində zərər qaçılmazdır. İnsanın əlaqələri xoşgörüş, hörmət, sevgi ilə icra edilsə sağlam, dinc fərdlər, beləliklə də ailələr, cəmiyyətlər ortaya çıxar.

Birlik və bərabərlik içində olan cəmiyyətlər bütün problemlərini həll etməkdə daha müvəffəqiyyətlidirlər. Düşüncə birliyi, könül birliyi, hərəkət birliyi içində hərəkət edən cəmiyyətlərin hüzur içində müvəffəqiyyətli olduqları, irəlilədikləri görülmüşdür. Bu dəyişməz bir tarixi gerçəkdir.

Birlik içində olan, hərəkət edən insanlardan ibarət olan cəmiyyətlər daha sağlam inkişaf etmiş, mədəniyyətlər qurmuş, rəhbərlikdə ədaləti təmin etmiş və əzilməmişlər.

Bu məzmunda bəzi fərqliliklərimiz ola bilər. Ancaq bu fərqimiz əsla birlik və birliyimizin qarşısında maneə deyil. İnsan nəsli fərqli millətlər, birliklər, qövmlər içində yaşayaraq; elmdə, məlumatda, mədəniyyət, bacarıq və xeyirdə bir-birinə maneə deyil, dəstək olmağı öyrənər.

Fərqlilik hər hansı bir millətə ya da cəmiyyətə önə çıxsın, digərlərinə hökmranlıq etsin deyə verilməmişdir. Birlik və bərabərlik bütünlüyündə hərəkət etmədən heç bir ailə, şirkət, təşkilat, hətta dövlət ayaqda qala bilməz. Müqəddəs kitabımızda da "Xeyir işlərində yarışın" buyruğu bu gerçəyə işıq tutur.

Birlik və bərabərlik eyni ideya ətrafında, eyni dəyərlərə hörmət edərək, eyni hədəfə getməkdir. Fərqliliklərə baxmayaraq xoşgörüş ilə empati quraraq bir olmaqdır. Fərqliliklərimizi qucaqlayaraq bir yerdə ola bilməkdir. Bir-birimizlə didişmədən, hər kəsi olduğu kimi qəbul edərək, bir-birimizə dəstək olaraq yaşamaqdır.

Hüzur içində yaşamaq üçün kədərdə və sevincdə ortaq ola bilmək, dərdlərə birgə çarə tapa bilməkdir. Necə ki, bunu biz Borçalı xalqı bu yaxında etdik. Knyaz qardaşımız buna Allah tərəfindən bir vəsilə seçildi. Bu birlikdə nə qoca dedik, nə cavan. Nə qadın dedik, nə də uşaq. Kimin nəyə imkanı, gücü çatdı onunla dəstək oldu. Kimisi evindəki son qəpiyini verdi, kimisi tövləsindəki inəyini satdı. Gənc qardaşlarımız kənd-kənd, qapı-qapı düşüb dəstək topladılar. Maddi olaraq imkanı olmayan qan verərək dəstək oldu. Qısası, bu yolda hər kəs can qoydu.

Bu birlik və bərabərlikdə millət söhbəti də olunmadı. Keçən yazımızda da vurğuladığımız kimi eyni vətənin vətəndaşı olduğumuz gürcü qardaş və bacılarımızdan da böyük dəstək gəldi.

Bunu da vurğulamadan keçə bilmirəm, bəzi insanlar öz həva və həvəsləri uğruna, lüks yaşamaları uğruna milyonlarca insanı qətl edərkən, bizlər – insanlığı yaşatmaq üçün minlərlə insan bir insanı yaşatmaq uğruna mücadilə etdik. Budur əsl insanlıq, budur hüzur içində yaşamaq.

**Çox şükür ki, uca Allah bu mücadiləmizdə bizlərə sevinc duyğusunu yaşatdı. Minlərlə insanın əziyyətinə rəhmi gəldi. Qardaşımızın hər gün daha da yaxşı xəbərləri gəlməkdədir. İnşallah ki, gülərüzlə vətənə də qayıdar.**

# xojalos tragediidan 26 weli gavida

1992 წლის 26 თებერვალს სომეხთა შეირაღაბეულმა ძალებმა ყოფილი სსრკ-ს ხანქენდში მდებარე 366-ე მოტომსროლელთა დივიზიის მონაწილეობით აზერბაიჯანელი ხალხის წინააღმდეგ უანალოგო ხოჯალოს გენოციდი განახორციელოს. სომხებმა ქალაქ ხოჯალოს მოსახლეობა დაარბიეს, ასობით კაცი, მათ შორის მოხუცები და ბავშვები აწამეს და მოკლეს, ტყვებად აიყვანეს, ქალაქი მიწის პირისგან აღგავეს. ხოჯალოს ოკუპაციის დროს მოსახლეობას ქალაქიდან გასასვლელად დერეფანი არ დაუტოვეს, უმოწყალოდ ამოხოცეს ყოველი სულიერი. ამ საშინელი მოვლენიდან რამდენიმე დღის შემდეგ ტელერეპორტიორის მიერ გადაღებულმა საშინელმა კადრებმა მთელი მსოფლიო შეაძრწუნა. ათობით მოხუცის, ბავშვის და ქალის გვამი ატყავებული იყო, სახეები ტყვიებით და ავტომატის კონდახებით დაჩეხილი ჰქონდათ.

ხოჯალოს მოსახლეობის 613 კაცი მოკლული, 487 კაცი დასახიჩრებული იქნა. 1275 კაცი- მოხუცი, ქალი და ბავშვი კი ტყვედ იქნა აყვანილი და საშინელი ტანჯვა-წამების მსხვერპლად იქცა. 150 კაცის ბედი კი დღემდე გაურკვეველია, ისინი უგზო-უგვლოდ არიან დაკარგულნი. ხოჯალოში ამოხოცილი 613 კაციდან 106 ქალი, 63 ბავშვი და 70 მოხუცი იყო. ამ ტრაგედიის დროს 8 ოჯახი მთლიანად იქნა განადგურებული, 24-მა ბავშვმა მშობლები, 130-მა კი მშობლებიდან ერთი დაკარგა.

ხოჯალო გასული საუკუნის ყველაზე დიდი ტრაგედიაა. ხოჯალოს ტრაგედია, როგორც გენოციდის აქტი მრავალი წლების მანძილზე დაუვიწყარი დარჩება. ხოჯალოს ტრაგედია, ეს არის სომეხი ნაციონალისტების მიერ აზერბაიჯანლების წინააღმდეგ განხორციელებული ეთნიკური წმენდისა და გენოციდური პოლიტიკის სისხლიანი ფურცელი.

ქალაქ ხოჯალოს ოკუპაციის დროს მშვიდობიანი აზერბაიჯანელი მოსახლეობის წინააღმდეგ სისასტიკის განმხორციელებლები და ჟენევის კონვენციის, „ადამიანის უფლებების შესახებ" საერთო დეკლარაციის (გეო მთავარი მეჯლისის მიერ 10.12.1948 წ.-ის თარიღში იქნა მიღებული) 2, 3, 5, 9 და 17 მუხლების, „სამხედრო კონფლიქტების დროს ქალებისა და ბავშვების დაცვის შესახებ" დეკლარაციის (გეო მთავარი მეჯლისის მიერ 14.12.1974 წ.-ის თარიღში იქნა მიღებული)", „გენოციდის დანაშაულთა წინააღმდეგ და დამნაშავეთა დასჯის შესახებ" კონვენციის (გეო მთავარი მეჯლისის მიერ 09.12.1948 წ.ის თარიღში იქნა მიღებული) მოთხოვნითა უხეშად დამრღვევები დღემდე არ არიან დასჯილნი.

## QARDABANİDƏ XOCALI FACİƏSİ YAD EDİLDİ



22 fevral tarixində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Qardabanidəki ofisində Xocalı faciəsi ilə bağlı tədbir keçirilib. Tədbirdə gürcü və azərbaycanlı gənclər, ziyalılar, ictimaiyyət nümayəndələri, KİV və QHT nümayəndələri, din xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının əməkdaşı Hacı Bəkiroğlu qətliam nəticəsində həlak olan şəhidlərin ruhunu bir dəqiqəlik sükutla anılmasını təklif edib.

"Tam 26- il bundan əvvəl, fevralın 25-dən 26-na keçən gecə Xocalıda bir qətliam həyata keçirildi. Yüzlərlə insan vəhşicəsinə qətl edildi. Bunların içərisində yaşlılar da vardı, qadınlar da, körpə uşaqlar da. Onu da vurğulayım ki, bu qətliam yalnız Xocalı sakinlərinə qarşı deyil, bütün Türk dünyasına qarşı törədilmişdir. Xocalı faciəsi yaxın tarixin, yəni XX əsrin böyük faciələrindən biri idi. Hətta ən böyüyü idi desək yanılmarıq məncə. Ancaq nədənsə dünya yaxın tarixdə bu böyüklükdə bir faciəni görməməzlikdən gələrək 1915-ci ildə soyqırım axtarır", – deyə Hacı Bəkiroğlu çıxışı zamanı vurğulayıb.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin nümayəndəsi Rəhim Rəhimzadə isə öz çıxışında Xocalı faciəsi ilə bağlı geniş məlumat verib. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı törədilmiş Xocalı soyqırımının təfərrüatlarından, baş verdiyi şəraitdən və fəsadlarından danışıb.

Daha sonra Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubov çıxış edərək Xocalı qətliamının dünyanın hər yerində yad edilməli olduğunu bildirib.

Gənc fəal Nərgiz Əliyeva isə öz çıxışı zamanı bu cür tədbirlərin gənclərin maarifləndirilməsi yönündə böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, qeyd edib ki, belə tədbirlər nəinki öz həmvətənlərimiz arasında, gürcü cəmiyyətində də təşkil edilməlidir.

Tədbirdə iştirak edən el ağsaqqalı, şair Zahid Ələmpaşalı Xocalı faciəsinə münasibət bildirdikdən sonra Azərbaycana və Türk dünyasına aid yazdığı şeirləri səsləndirib.

Tədbirdə həmçinin Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının nəzdində fəaliyyət göstərən hazırlıq kurslarında oxuyan şagirdlər Xocalıya aid şeirlər səsləndiriblər.

Tədbirin sonunda isə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının əməkdaşı Binəli İslamoğlunun hazırladığı Xocalı soyqırımını əks etdirən videoçarx nümayiş etdirilib.



# KİM "DƏVƏT OLUNMUŞ MÜƏLLİM" OLA BİLƏR?

**Müəllimlərin Peşəkar İnkişaf Mərkəzi Gürcüstan Elm və Təhsil Nazirliyinə iki yeni təşəbbüs təqdim edib. Nazirlik təşəbbüsləri təsdiqlənmək üçün Parlamentə təqdim edəcək. Təşəbbüsə əsasən, müvafiq konkret fənn üzrə kvalifikasiyalı pedaqoqları olmayan məktəblər müəllim dəvət edə və bu şəkildə çatışmamazlığı doldura bilərlər. Kim "dəvət olunmuş müəllim" və kim "axtaran" ola bilər? Bu mövzuda Müəllimlərin Peşəkar İnkişaf Mərkəzinin ekspert-məsləhətçisi Manana Ratiani danışıb.**



***- Məktəb hansı hallarda müəllim dəvət edə bilər və dəvət olunan müəllimin hansı kvalifikasiyası olmalıdır?***

- Bununla bağlı çox müzakirələr aparıldı, bir çox qruplarla görüşdük. Burada söhbət ondan gedir ki, müəllim kvalifikasiyası olan, amma elmi institutlarda və ya başqa sahələrdə işlə təmin olunmuş şəxslər istədikləri halda məktəbdə də çalışa bilərlər. Məktəbin isə onu kirayələmək hüququ olmalıdır.

Dəvət olunmuş müəllim pedaqoq statusu əldə etmək və statusu saxlamaq üçün kredit toplamaq məcburiyyətində deyil. Çünki ola bilsin, bunun üçün həmin şəxsin vaxtı yoxdur. Dəvət olunmuş müəllimin ən azı həftədə iki saat uşaqlara dərs keçməsi məktəbi qane etməlidir.

***- Dəvət olunmuş müəllim nə öyrətməlidir, bunu məktəb müəyyənləşdirir? Dəvət olunmuş müəllimin əmək haqqını kim ödəyəcək – məktəb yoxsa nazirlik?***

- Dəvət olunmuş müəllimə dərs proqramını məktəb özü verəcək. Bu dəyişiklik həyata keçirilərsə müəllimin maaşını kimin ödəyəcəyi sonra müəyyən olacaq. Faktır ki, kiçik kontingentli məktəblərin müəllim dəvət etməyə resursu olmayacaq, yüksək kontingentli məktəblərin isə bir müəllimi kirayələmək imkanı olacaq.

***- Dəvət olunan pedaqoqdan əlavə, istəyi olanlar məktəbə "axtaran" statusu ilə daxil ola bilərlər. Bu nə deməkdir?***

- Biz bilirik ki, gənc kadrlar üçün məktəbə daxil olmaq çətin prosesdir. Buna görə çox adam şikayətini bildirir.

Düşünürük ki, bu təşəbbüs yaxşı nəticə verəcək. Zamanında fizika, kimya fakultəsini bitirən, ancaq müəllim olmaq üçün seçim etməyən gənclər "axtaran" statusu ilə məktəbə daxil ola və sonra müəllim kompetensiyalarını möhkəmləndirə bilərlər.

***- Əgər şəxsin müəllim statusu yoxdursa, ancaq elmi dərəcəsi varsa, bu halda 60 kreditlik proqramı keçməsi vacibdirmi, yoxsa bu dərəcə onların kvalifikasiyası hesab olunacaq?***

- Əgər şəxsin doktorant dərəcəsi varsa o, baş müəllim statusu ilə çalışa bilər. Sonra artıq adi müəllimlər üçün peşəkar inkişaf sxemi ilə hərəkət etməlidir.

***- "Axtaran" proqramı yenidir, yoxsa indiyə kimi var idi?***

- Əvvəl başqa proqram var idi. "Axataran"lar məktəblərə daxil olurdular, dərslərdə iştirak edirdilər, amma pedaqoq olaraq işlə təmin olunmurdular. Bu təşəbbüsdə isə "axtaran" ilk növbədə çalışamağa, daha sonra peşəkar inkişafa başlaya bilər.

"Axtaran"lar proqramının detalları hələ müzakirə olunmayıb, amma konsepsiya var və təşəbbüs təsdiqləndiyi halda bunun üzərində çalışmalara başlanılacaq.

***- Bu təşəbbüsü təqdim etmək niyə vacib oldu?***

- Vacibdir, çünki bununla yüksək kvalifikasiyalı kadrları cəlb etmək, məktəbləri maraqlandırmaq və ixtisasın prestijini yüksəltmək istəyirik. Bundan əlavə, şagirdlərin yeniliklərlə yanaşı elmlə də bağlantılarının olması önəmlidir.

Axtaranlarda bu, gənc müəllimlərin məktəbə daxil olmaq motivasiyasının itirilməməsinə doğru istiqamətlənib. Ona görə, düşünürəm ki, bu, lap zamanında irəli sürülən təşəbbüsdür.

Dağlıq regionlarda müəllim çatışmamazlığı çoxdur. Məktəblərin ciddi problemləri var. Onlar gözləyə bilməzlər ki, kimsə 60 kreditlik proqramı nə zaman başa vuracaq. Ona görə də, bu təşəbbüs onlar üçün çox yararlı olacaq.

***Gürcü dilindən tərcümə: Aynurə Əliyeva***

## ATTESTAT İMTAHANLARI DƏYİŞİK FORMATDA KEÇİRİLƏCƏK

Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin məlumatına görə, 2018-ci ildə attestat imtahanları dəyişik formatda keçiriləcək. Testləşdirmə bitən zaman şagird ekranda topladığı balı deyil, minimal barieri (5,5-dən çox, ya az) aşıb-aşmadığı haqqında mesajı görəcək.

Mərkəzin məlumatına görə, buraxılış imtahanları bu il də iki mərhələ olaraq, 11-ci və 12-ci siniflərdə keçiriləcək. 11-ci sinif şagirdləri tədris ilinin sonunda bitirdikləri fənnlərdən imtahan verəcəklər (fizika, kimya, biologiya, coğrafiya). Qalan 4 fənndə testləşdirməni isə (riyaziyyat, gürcü dili və ədəbiyyat, xarici dil, tarix) şagirdlər məktəbi bitirdikdən sonra keçirlər.

Məktəb buraxılış imtahanları kompüterdə adaptasiya olunmuş testləşdirilmənin gürcü modeli əsasında keçirilir.

## TƏHSİL NAZİRLİYİ: "İKİ XARİCİ DİLİN TƏDRİSİ YENİDƏN MƏCBURİ OLACAQ"

Gürcüstan Elm və Təhsil Nazirliyinin məlumatına görə, iki xarici dilin tədrisi şagirdlər üçün yenidən məcburi olacaq. Nazirlik son günlərdə mediada yayılan ictimai məktəblərdə ikinci xarici dilin tədrisinin məcburi deyil, seçim fənni olacağına dair məlumatlara aydınlıq gətirib: "Gürcüstanın Elm və Təhsil Nazirliyi birmənalı şəkildə bildirir ki, mediada yayılan məlumat həqiqətə uyğun deyil. Əksinə, nazirliyin məqsədi məktəblərdə xarici dillərin tədrisinin daha da yüksək standartının əsasını qoymaqdır.

Milli tədris planının inkişafı prosesində, xarici dillərə gələcəkdə daha da önəm veriləcək. İki xarici dilin tədrisi şagirdlər üçün yenidən məcburi olacaq. İngilis dili birinci sinifdən tədris olunacaq. İkinci xarici dili isə məktəb tərəfindən təklif olunan dillərdən şagird özü seçərək 5-ci sinifdən öyrənməyə başlayacaq. Məktəbin öhdəliyi olacaq ki, məcburi xarici dil çərçivəsində şagirdlərə seçim üçün iki dil təklif edilsin, şagirdlərə seçim imkanı verilsin və dillərin yüksək səviyyədə tədrisi təmin edilsin".

## MİXEİL ÇXENKELİ: AVTORİZASİYASI DAYANDIRILMIŞ UNİVERSİTETLƏRİN TƏLƏBƏLƏRİ AVTORİZASİYASI OLAN UNİVERSİTETLƏRƏ KEÇƏ BİLƏCƏKLƏR

Avtorizasiyası dayandırılmış universitet tələbələrinin mobilləşmə imkanı olacaq. Bu haqda təhsil və elm naziri Mixeil Çxenkeli fevralın 21-i baş tutan brifinqdə çıxışı zamanı bildirib.

"Təhsil və Elm Nazirliyi əsasən təhsilin keyfiyyətinin qayğısına qalır. Bir neçə universitetin avtorizasiyası məhz keyfiyyət səviyyəsinə görə dayandırılıb. Buna görə də ilk növbədə avtorizasiyası dayandırılmış universitetlərin tələbələrinə müraciət edirəm: Mən insan olaraq çox yaxşı başa düşürəm ki, bu vəziyyət onlar üçün çox çətindir. Ancaq bütün tələbələri inandırmaq istəyirəm ki, onlardan heç biri ali təhsildən kənar qalmayacaq. Onlar üçün xüsusi olaraq mobilləşmə prosesi elan olunacaq və tələbələrin imkanı olacaq ki, istədikləri halda avtorizasiyadan keçmiş universitetə keçsinlər. Bizim nazirlik və milli mərkəz maksimum dərəcədə çalışırıq ki,onlara bu prosesdə kömək edək", – deyə Çxenkeli bildirib.

## KVEMO KARTLİ BÖLGƏSİNDƏ 13 MƏKTƏB ƏSASLI TƏMİR OLUNACAQ

ABŞ-ın "Millennium Challenge Corporation" fondu Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı Kvemo Kartli bölgəsində 13 məktəbin əsaslı təmirini maliyyələşdirir. Bu barədə fondun Tbilisidə keçirdiyi konfransda bildirilib.

Təşkilatın Gürcüstan üzrə nümayəndəliyinin infrastruktur layihələr üzrə direktoru Kartlos Kipiani deyib ki, bölgədə bərpa olunan məktəblərin 9-u Azərbaycan dilli məktəbdir: "Məktəblərin yenidən qurulması işlərinin cari ilin may ayında başa çatdırılacağı gözlənilir. Kvemo Kartli bölgəsində daha çox məktəbin təmirə ehtiyacı olsa da, fondun imkanları məhduddur. Təşkilat bütün Gürcüstan üzrə 90-a yaxın məktəbdə bərpa işləri həyata keçirir".

Təmirə ehtiyacı olan məktəblərin müəyyən olunması prosesinə gəlincə, K. Kipiani qeyd edib ki, təhsil ocaqları konkret kriteriyalar əsasında seçilir: "Məktəblərin seçilməsi qaydalarında Gürcüstanda Azərbaycan və erməni dilli məktəblər üçün də kvota olub. Fondun maliyyəsi əsasında bütün məktəblər vahid standartlar əsasında bərpa olunur".

Qeyd edək ki, ABŞ-ın "Millennium Challenge Corporation" fondu Gürcüstanda təhsil infrastruktur layihələrinin yerinə yetirilməsinə 68 milyon dollar qrant ayırıb. 2018-ci ildə fond Gürcüstanın regionlarında ictimai məktəblərin yenidən qurulması işlərini davam etdirəcək. Təşkilat cari ildə Gürcüstanın qərbində 33 ictimai məktəbin bərpasına start verəcək. Ötən il təşkilat Gürcüstanın müxtəlif regionlarında 30 ictimai məktəbin bərpasını başa çatdırıb.

# XARİCDƏ TƏHSİL



*İsmail SÜLEYMANOV*
*Sakarya, Türkiyə*

**Ali təhsil bir insanın, bir gəncin, parlaq gələcək xəyalı quran hər kəsin zirvəyə çıxan yolda aşmalı olduğu ilk pillədir. Bəzi istisna insanlar bu pilləni çıxmadan daha yuxarıya çatmağa nail olurlar, ancaq bir çoxumuz isə bunu etməyə məcburuq.**

**Uşaqlıqdan bəşəriyyət üçün faydalı bir insan olmağı hədəf olaraq seçmişəm və hələ də o hədəfə doğru addımlamağa çalışıram.**

Mənim təhsil hekayəm 2003-ci ilin payızında Marneuli rayonu Qasımlı Kəndində başlayır. 5 yaşımda ikən iki yaş böyük bacımın ibtidai məktəbə başladığı zaman ondan ayrılmaq istəmədiyim üçün, onunla birlikdə məktəbə getməyim, müəllimlərin isə, onsuz da bu balacadır, iki gün həvəsini alsın sonra gəlməməyə başlayar, deyib getməyimə icazə verməmələri, ancaq daha sonra necəsə məktəbdə olmağı çox sevib davam etməyim 12 il boyunca sinfin ən balacası olaraq bütün ağırlıqları çəkməyimə səbəb olur. Orta məktəbdə oxuyarkən ailəmin və yaxınlarımın dəstəyi ilə 2009-cu ildən etibarən fərqli kurslara gedərək özümü gələcəyə hazırlamağa başladım. O zamanlar bunların nə qədər önəmli olduğunu, mənə nə qədər fayda verəcəyini çox da düşünmürdüm, sadəcə oxuyurdum. 2014-cü ilə gəldiyimdə (12-ci sinif) mən də bir çox sinif yoldaşlarım kimi artıq həyatda hansı yolu, peşəni seçəcəyimə qərar vermişdim – mən informasiya, texnologiya çağında, bu çağın qurucularının yolu ilə getməyi, insanların həyatına texnologiya ilə yaxşı mənada nələrsə qatmaq istəyirdim. Bunun üçün təhsil ala biləcəyim universitetləri araşdırır, özümə bir təhsil planı cızmağa çalışırdım. O zamanlar xaricdə təhsil almaq 3 övladına baxmağa çalışan anam üçün maddi tərəfdən çox çətin olacağından bu ehtimalı heç göz önünə belə gətirmirdim. 2015-ci il yanvar ayında, hələ universitet qeydiyyatlarına bir neçə ay var ikən və gecə-gündüz imtahanlara hazırlaşarkən davam etdiyim "Gürcücə kursu"nda uşaqlardan bir nəfər Türkiyədə 100% təqaüd ilə təhsil alan tanışı haqqında danışmağa başladı. Maraqlandım, araşdırdım, o şəxslə əlaqə qurdum və ilk dəfə o zaman xaricdə təhsil almaq mövzusunda ciddi düşünməyə başladım. Bu mənim həyatımın ən böyük fürsəti ola bilərdi. Təhsildə və texnologiyada Gürcüstandan çox üstün olan bir ölkədə istədiyim sahədə 100%-lik təqaüd ilə təhsil almaq imkanı... Tez bu xəbəri sinif yoldaşlarıma çatdırdım. Mənimlə birlikdə bacım və 6 nəfər başqa şagird qeydiyyatdan keçdi. Necə olsa da, hələ ki ilk mərhələ idi, qeydiyyatdan keçmək getmək məcburiyyətində olduğumuz demək deyildi. Bir neçə həftə sonra "Türkiye Bursları"ndan ilk mərhələni keçdiyim və Tbilisi Yunus Əmrə Mədəniyyət Mərkəzində müsahibəyə çağırıldığımı yazan bir elektron poçt aldım. Bu çox əla bir xəbər idi.

Müsahibəyə məktəbimizdən 4 nəfəri çağırmışdılar. İçəridə 40-45 nəfər bizim kimi şagird müsahibə üçün sıralarının gəlməsini gözləyirdi. İçəridən hər çıxan tər tökür, nə olub bitdiyini anlamağa çalışırdı. Zamanım gəldiyində mən də otağa daxil oldum. 5 nəfər stolun arxasında oturmuşdu. Mənə yer göstərdilər, oturdum. Sənədlərimə və ön yazıma göz gəzdirməyə başlayıb, ailədən, məktəbdən, qatıldığım yarışma və tədbirlər haqda suallar verdilər. Ən sonda isə qeydiyyat zamanı doldurduğum 12 ixtisas və universitetin olduğu formanı və oradakı ixtisasları niyə yazdığımı soruşmağa başladılar. Normalda müsahibələr 4-5 dəqiqə çəkirdi. Məndə isə 20 dəqiqəni keçmişdi. İçəri daxil olduğum zaman 5 nəfər tanımadığım insan və kamera qarşısında oturub qalacağımı düşünürdüm. Amma sonra ağlımdan bu fikir keçdi, bura mənim həyatımın dönüş nöqtəsi olacaqdı, burada özümü yaxşı tanıda bilsəm, gələcək xəyallarımdan bəhs edərkən düzgün ifadə edə bilsəm, o zaman bəlkə də hədəflərimə çatma yolunda çox böyük bir addım atmış olardım. Bu müsahibə ən vacib nöqtə idi.

Müsahibədən həftələr sonra məktəbin son imtahanlarını bitirdikdə, ümumi qabiliyyət imtahanlarına hazırlaşdığımız bir zamanda yenə "Türkiye Bursları"ndan elektron məktub aldım. Bu dəfə qəbul edildiyimi və rəsmi olaraq Türkiyədə təhsil alacağımı yazırdılar.

23.05.2015 tarixi həyatımın dönüş nöqtəsi oldu. İlk əvvəl ailəmdən təsdiq aldım. Ətrafımdakı insanların bəziləri bunu qəbul etməməli olduğumu, öz ölkəmdə ala biləcəyim təhsilin mənim üçün daha dəyərli olduğunu dedilər. Ən son qərarı isə içimdəki səsin verməli olduğunu düşündüm. O isə bu fürsəti qaçırmamaq üçün nə lazımdırsa etməyə hazır idi. Və mən qərarımı vermişdim – getmək ən yaxşı seçim idi. Artıq hansı universitetə gedəcəyim məlum idi: Sakarya Üniversiteti – "İnformasiya mühəndisliyi" – yeni sənayenin mərkəzlərindən birində oxuyacaqdım. Artıq geriyə tək bir şey qalmışdı – viza prosesini başladıb, təhsil üçün hazırlıqlar görmək.

Avqustun 22-si mən artıq bütün sənədlərimi hazırlamış, Gürcüstana vida etmiş, heç bilmədiyim bir məmləkətə, heç bilmədiyim insanların arasında, heç bilmədiyim bir universitetdə təhsil həyatımı davam etdirmək üçün yola çıxmışdım. Hələ dərslərin başlamasına 1 aya kimi vaxt olduğundan bir müddət İstanbuldakı tanışlarımla qaldım. Sentyabrın 13-ü artıq təhsil alacağım şəhərdə idim. Yataqxana qeydiyyatımı keçdikdən sonra, oradakı insanları yaxından müşahidə etməyə başladım. Yeni mühitə öyrəşməyə başladım. Yeni insanlarla tanış olur, yeni və qəribə şeylər öyrənir, hər keçən gün daha çox uyğunlaşmağa və yeni həyatımın dadını çıxartmağa başlamışdım.

Əgər özünə güvənsən, bir işi bacaracağına inansan və gecə-gündüz durmadan çalışsan uğura nail olmaq heç də çətin olmayacaq.

Hal-hazırda Sakarya Universitetində "İnformasiya mühəndisliyi" ixtisası üzrə 3-cü kurs tələbəsiyəm və xaricdə təhsil həyatını davam etdirmək istəyən gənc dostlarıma tövsiyəm inam və çalışmaqdır. Orta məktəb həyatınızda nə qədər çox çalışsanız, tədbirlərə, yarışmalara, olimpiadalara qatılsanız, kurslara getsəniz gələcəkdə sizə fayda gətirəcəkdir, buna əmin ola bilərsiniz. Heç vaxt mən bacara bilmərəm, mənlik deyil deməyin! Yoxlayın bir dəfə, iki dəfə, üç dəfə, əgər sonunda nəsə əldə edə bilməsəniz belə bilin ki, təcrübə qazanmış olarsınız. Son olaraq, əgər parlaq bir təhsil həyatı arzulayırsınızsa siz də mənim kimi "Türkiye Bursları" proqramına qeydiyyatdan keçib şansınızı yoxlaya bilərsiniz.

**Unutma! Bu həyatı sən yaşayırsan və yüksəlmək də, dibə çökmək də sənin öz əllərindədir. Həyatını qurmağa və yaşamağa elə indidən başla!**

# GƏLƏCƏYİ KƏŞF ET!

TÜRKİYE BURSLARI SCHOLARSHIPS

**"Türkiyə təqaüdləri" beynəlxalq tələbə və tədqiqatçılara Türkiyənin ən prestijli universitetlərində təqaüdlü təhsil və tədqiqat imkanı yaradan bir proqramdır.**

**Proqrama daxildir:**

**Təhsil haqqı**

**Türk dili kursu (1 il)**

**Aylıq təqaüd**

**Ümumi tibbi sığorta**

**Təyyarə ilə ikitərəfli uçuş**

**Pulsuz yataqxana**

**Akademik, mədəni və digər əlavə proqramlar**

**Türkiyədə təqaüdlü təhsil almaq üçün www.turkiyescholarships.gov.tr veb səhifəsində qeydiyyatdan keçmək lazımdır. Qəbul üçün qeydiyyat altı dildə (türk, ərəb, ingilis, fransız, rus, bosniya dillərində) aparılır.**

**- Proqram Türkiyə vətəndaşlarına aid deyil**

**- Proqram bakalavr, magistr və doktor dərəcələri üçün nəzərdə tutulub**

**- Universitetə qəbul olmaq və təqaüd almaq üçün bir ərizə daxil edilir**

**Tələbələr üçün aylıq təqaüd:**

**- Bakalavr tələbələri üçün 700 Türk lirəsi (TL)**

**- Magistr tələbələri üçün 950 TL**

**- Doktorantura tələbələri üçün 1400 TL**

**- Tədqiqtçılar üçün 3000 TL (1 ay)**

**- Yay məktəbi tələbələrü üçün 500 TL (1 ay)**

**- Dövlət xidmətçiləri və akademiklərə türk dilində kommunikasiya təhsili (KATİP) üçün 2000 TL (1 ay)**

**Bakalavr təhsili almaq istəyənlər aprelin 16-dan mayın 14-ə kimi, magistr dərəcəsi almaq istəyənlər isə fevralın 5-dən martın 5-ə kimi qeydiyyatdan keçməlidirlər.**

**Ətraflı məlumat üçün aşağıdakı nömrəyə zəng edə və emailə yaza bilərsiniz: 0850 455 0 982 / info@turkiyeburslarы.org**

## YUNUS ƏMRƏ İNSTİTUTUNUN YENİ RƏHBƏRİ TBİLİSİNİN 152 SAYLI MƏKTƏBİNDƏ QONAQ OLUB



Tbilisi Yunus Əmrə İnstitutunun yeni rəhbəri Selçuk Kürşad Koca fevralın 14-ü "Türk dili mənim seçimimdir" layihəsi çərçivəsində Tbilisinin 152 saylı ictimai məktəbində qonaq olub. Məktəbdə türk dili tədris olunur. Selçuk Kürşad Koca məktəb direktoru Tamar Quraşvili ilə həyata keçirilmiş və gələcək planlar haqqında danışıb. Görüşdən sonra isə türk dilini öyrənən şagirdlərlə söhbət edib.

## KVEMO KARTLİ QUBERNATORU QARDABANİ BƏLƏDİYYƏSİNDƏ OLUB

19 fevral tarixində Kvemo Kartli qubernatoru Qriqol Nemsadze və qubernatorun birinci müavini Aleksandre Metreveli Qardabani bələdiyyəsində olublar və kəndlərdəki vəziyyətlə yerində tanış olublar.

Qubernator Qardabaninin meri Ramaz Budağaşvili və sakrebulo sədri Tariel Canxoteli ilə birgə Kosalı, Nəzərli, Ağtəhlə, Qaratəhlə və Qamarcveba kənd əhalisi ilə görüşüb və onların suallarını cavablandırıb.

Qubernator və mer 2018-ci ildə yerli büdcənin maddi dəstəyi ilə bələdiyyədə 29 infrastruktur layihəsinin həyata keçiriləcəyi haqqında əhaliyə məlumat veriblər. Layihələrin ümumi dəyəri 6 450 000 laridən ibarətdir.

Hakimiyyət nümayəndələri əhalini kəndlərdə 2018-ci ildə planlaşdırılan layihələrlə tanış ediblər:

• Cari ildə Qamarcveba kəndində 2 saylı uşaq bağçası reabilitasiya olunacaq. Layihənin ümumi dəyəri 250 000 larini təşkil edir;

• Qamarcveba kəndində 1 saylı uşaq bağçasının tikintisi planlaşdırılır. Layihənin ümumi dəyəri 750 000 larini təşkil edir. Qamarcveba kəndində olan bağça demontaj olunacaq və onun yerində yeni, 6 qrup üçün nəzərdə tutulmuş bağça inşa olunacaq. Bağça ümumilikdə 150 uşaq qəbul edəcək;

• Ağtəhlə-Qaratəhlə kəndlərində uşaq bağçası inşasının ikinci mərhələsi planlaşdırılıb. Layihənin dəyəri 350 000 larini təşkil edir. İlk mərhələ 2017-ci ildə həyata keçirilib. Tikinti işləri başa çatdıqdan sonra uşaq bağçası 130-dan 150-yə qədər uşağa xidmət göstərəcək;

• Qaratəhlə kəndində yollara asfalt qatının çəkilməsi üçün 2018-ci ildə 450 000 lari nəzərdə tutulub;

• Cari ildə Ağtəhlə kəndində yollara asfalt qatının çəkilməsi üçün 250 000 lari ayrılıb;

• Kosalı kəndində yollara asfalt qatı çəkilməsi üçün 460 000 lari nəzərdə tutulub;

• Nəzərli kəndində yollara asfalt qatının çəkilməsi planlaşdırılır. Layihənin ümumi dəyəri 340 000 larini təşkil edir;

Hakimiyyət nümayəndələri Qardabani 2 saylı uşaq bağçasını da nəzərdən keçiriblər. Yerli büdcənin maddi dəstəyi ilə qeyd olunan bağçanın reabilitasiya işlərinin həyata keçirilməsi yaz aylarında başlayacaq. Onun dəyəri 200 000 laridir.

Qardabani şəhərində, həmçinin, N1, N3, N4 və N5 uşaq bağçalarının tam reabilitasiyası planlaşdırılır. Qeyd etmək lazımdır ki, həmin uşaq bağçalarında 2015-ci ildə mətbəxtdə təmir işləri həyata keçirilib, texnika yenilənib.

## MARNEULİDƏ MÜASİR İSTİXANA AÇILIB



Marneuli rayonunun Əzizkənd kəndində müasir istixana təsərrüfatı açılıb.

"Hazır şitil" adlı təsərrüfat Avropa standartlarına cavab verir və yüksək texnologiyalarla təchiz olunub.

"Gürcüstanda istehsal et" dövlət proqamı və "Vahid Aqrolayihə" çərçivəsində yaradılmış təsərrüfata 1,8 milyon dollardan çox investisiya yatırılıb. Məbləğin 442 min dollarını güzəştli kredit təşkil edir.

İldə 30 milyon şitilin istehsal olunacağı təsərrüfatda 30 nəfər işlə təmin olunub. İstixananın məhsulları yerli bazarda satışa çıxarılacaq.

Açılış mərasimində Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri, Layihələrin İdarəsi Agentliyinin direktoru Revaz Asatiani, Marneuli munisipalitetinin meri Temur Abazov, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, Marneuli sakrebulosunun sədri Amiran Qiorqadze, onun müavini Mamuka Naveriani, Parlamentin üzvü Ruslan Hacıyev, Kvemo Kartli qubernatorunun müavini Zaur Darğallı, yerli özünüidarəetmənin digər rəhbər şəxsləri və dəvətli qonaqlar iştirak ediblər.

## TÜRKİYƏNİN GÜRCÜSTANDAKI SƏFİRİ ACARISTANDA SƏFƏRDƏ OLUB

Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Acarıstana səfəri çərçivəsində fiziki imkanları məhdud olan şəxslər üçün reabilitasiya mərkəzində qonaq olub. Səfiri mərkəzdə Acarıstanın səhiyyə naziri Zaal Mikeladze qarşılayıb.

Reabilitasiya mərkəzi Türkiyənin Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən 2013-2014-cü illərdə təmir və təchiz edilib. Mərkəzdə gündəlik 150 nəfərə kimi fiziki imkanları məhdud olan şəxslər reabilitasiya kursu keçir. Onlar üçün adaptasiya olunmuş mühit yaradılıb.

Mərkəzdə həmçinin tək analar üçün sığınacaq da fəaliyyət göstərir. Acarıstanın Səhiyyə Nazirliyinin 2018-ci il proqramı çərçivəsində sığınacaqdan 22 benefisiar istifadə edir.



Türkiyə səfiri Fatma Ceren Yazqan Acarıstan Muxtar Respublikasının səhiyyə və sosial müdafiə naziri Zaal Mikeladze ilə birgə, Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi tərəfindən reabilitasiya olunmuş Batumi infeksiya patalogiyaları, QİÇS və vərəm xəstəlikləri üzrə regional mərkəzə də baş çəkib.

## AĞTƏHLƏ VƏ QARATƏHLƏ KƏNDLƏRİNDƏ UŞAQ BAĞÇASI TİKİLİR

Ağtəhlə və Qaratəhlə kəndlərində uşaq bağçasının tikinti işləri davam edir. Qardabani şəhərinin meri Ramaz Budağaşvili ilkin mərhələdə həyata keçirilən işləri nəzərdən keçirib.

Müasir standartlara uyğun uşaq bağçasının tikinti işlərini "Parmaği" şirkəti 482 min 222 lari dəyərində məbləğə həyata keçirir. Layihəyə əsasən, ikinci mərhələ bağçanın daxili təchizatını, bayır perimetrinin qaydaya salınmasını və inventarla təmin olunmasını əhatə edir. Tikinti prosesi başa çatdıqdan sonra bağçaya 6 qrup yerləşdiriləcək.

## MALİYYƏ NAZİRİ MAMUKA BAXTADZE FEVRALIN 21-DƏ KEÇİRİLƏN HÖKUMƏT İCLASINDA 6 YENİ TƏŞƏBBÜS İRƏLİ SÜRÜB:



**Birinci təşəbbüs: İqtisadi işlər həyata keçirən təşkilatlar, yəni bizim nəzərimizdə xeyriyyə təşkilatları –2019-cu ildən onların vergi sistemi eston modelinə keçəcək. Qeyd olunan təşkilatlar gəlir vergisindən azad ola biləcəklər. Gözləyirik ki, qeyd olunan təşəbbüs çərçivəsində bu təşkilatların daxili investisiyalar həyata keçirmək üçün daha çox məbləği olacaq. Bu, birmənalı şəkildə onların gördüyü işin keyfiyyətinə təsir göstərməlidir.**

***İkinci təşəbbüs:*** Bu müəyyən qədər texniki xarakter daşıyır. Lakin biznesdə, bu, idarəetmənin asanlaşdırılması üçün vacib mənbədir. 2017-ci ilin 1 yanvar tarixindən əlavə dəyər ödəməklə vergi obyekti avans ödəmiş oldu. Müvafiq olaraq uzun müddətli müqavilənin əlavə dəyər vergisini ödəməsi üçün xüsusi normalardan istifadə olunmayacaq. Biz bu cür təcrübəni ümumiyyətlə ləğv etməyi məqsədəuyğun hesab edirik. Uzun müddətli müqavilələrin idarə olunması çox hallarda biznes üçün mövcud olan təcrübə ilə çətinləşdirilmişdi və biz bunu daha asanlaşdırılmış təcrübə ilə əvəz edəcəyik.

***Üçüncü təşəbbüs:*** Gürcüstan dövlət sərhədi çərçivəsində hava yollarının texniki xidmət göstərməsinin əlavə dəyər vergisindən azad olunmasıdır. Xatırladım ki, bu eyni zamanda Avropa İttifaqı ilə azad ticarət və asossiasiya sazişinin vacib komponentlərindən biridir. Düşünürük ki, qeyd olunan güzəştlə biz Gürcüstanın hava yolu ilə daşımalar baxımından regional mərkəzə çevrilməsi üçün yetərli dərəcədə stimul yarada biləcəyik. Təşəbbüs eyni zamanda ixrac xidməti ilə məşğul olan şirkətlərin çalışma sahəsinin əhəmiyyətli dərəcədə genişlənməsinə dəstək olacaq.

***Dördüncü təşəbbüs:*** Bu təşəbbüs iqtisadiyyatın çox vacib siqmentinə aiddir. Keçən il avtomobillərin reeksportu (təkrar ixracı) baxımından çox yaxşı göstərici qeydə alındı. Bu işlə çox adam məşğul olur. Qərara almışıq ki, bunu daha da asanlaşdıraq və qeyd olunan sektora dəstək göstərək. Təşəbbüsümüz belədir ki, əgər nəqliyyat vasitəsi ixrac əmtəə əməliyyatında qeydiyyatdan keçdikdən sonra 90 gün ərzində ixrac rejimində qeydiyyat olunarsa, yəni avtomobilin reeksportu baş verərsə, idxal əmtəə əməliyyatında qeydiyyatdan keçdikdən 15 gün müddətində biz ödənilmiş aksizin 100%-ni ödəyəcəyik. İndiyə qədər biz 50%-ni ödəyirdik. Bu Gürcüstanın qeyd olunan sahədəki mövqeyini daha da gücləndirəcək.

***Beşinci təşəbbüs:*** Bu təşəbbüs fiziki imkanları məhdud olan şəxslərin şəxsi istifadəsi üçün idxal olunan avtomobillərin aksiz vergisindən azad olmasını nəzərdə tutur. Adaptasiya olunmuş avtomobillərin bazar qiyməti çox yüksəkdir və bundan dolayı biz qərar qəbul etdik ki, bu növ avtomobilləri aksiz vergisindən tamamilə azad edək. Müvafiq olaraq qeyd olunan nəqliyyat vasitələrinin əldə olunmasına ehtiyac duyan vətəndaşların aksizdən azad olunmuş rejimdə - 3 ildə bir dəfə qeyd olunan avtomobilləri almaq imkanı olacaq.

***Altıncı təşəbbüs:*** Bu təşəbbüs gəlir vergisinin reformasına aiddir. Biz Beynəlxalq Valyuta Fondu, həmçinin, maliyyə sektoru ilə məsləhətləşdik. Qərar verdik ki, gəlir vergisi reformasının müddətini maliyyə sektoru üçün 2023-cü ilin 1 yanvarına qədər uzadaq.

## VERGİ MƏCƏLLƏSİNDƏ EDİLƏN DƏYİŞİKLİYƏ ƏSASƏN, VERGİ FAİZİ 5 DƏFƏ AZALDILACAQ

Fevralın 21-i hökumətin iclasında çıxışı zamanı baş nazir Giorgi Kvirikaşvili bildirib ki, hökumətin keçən iclasında elan edilmiş vergi məcəlləsinə daxil edilən dəyişikliklər hökumətin bugünkü iclasında artıq təqdim olunub.

"Xatırladaq ki, biz geniş miqyaslı reformalardan birinə başlayırıq və bu, maliyyə nazirinin çox yaxşı təşəbbüslərindən biridir. Bu qanunvericilik paketi 120 000-dən artıq sahibkara aid olacaq. Faizin 5 dəfə, yəni 5%-dən 1%-ə qədər azaldılmasından söhbət gedir və bu 500 000 lariyə qədər dövriyyəsi olan şirkətləri əhatə edəcək. Çox geniş miqyaslı dəyişiklikdir. Bu çox vacib vergi liberalizasiyasıdır. Dəyişiklik ona görə vacibdir ki, ilk mərhələni gəlir vergisini ləğv etməklə həyata keçirdik. Bu əsasən böyük və orta istehsalçılara aid idi. İndiki dəyişikliklər isə konkret olaraq kiçik istehsalçılara aiddir və birbaşa onların sosial vəziyyəti ilə əlaqədardır. Biznes sahəsini həvəsləndirmək əhəmiyyətlidir. Maliyyə nazirliyi artıq bütün ölkə miqyasında kiçik istehsalçılarla görüşləri planlaşdırıb", - deyə Kvirikaşvili bildirib.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

28 FEVRAL 2018-ci İL №002 (61)

## ƏDLİYYƏ EVİ VƏTƏNDAŞLARA YENİ XİDMƏT TƏKLİF EDİR



Ədliyyə Evində indiyə kimi qüvvədə olan 400-ə qədər xidmətə bu dəfə beynəlxalq sim kartların verilməsi xidməti də əlavə olunub. Ədliyyə Evi xaricə getmək istəyən vətəndaşlara biometrik pasport, səyahət üçün sığorta ilə yanaşı, fevralın 16-dan beynəlxalq sim kart əldə etmək imkanı da verir.

Təşəbbüs Ədliyyə Evi tərəfindən irəli sürülüb və yeni xidməti yerinə yetirən mobil operator hərrac qaydası ilə seçilib. Qalib şirkət istifadəçiyə xüsusi şərtlərlə və xüsusi qiymətə beynəlxalq sim kartlar təklif edir. İstifadəçilər beynəlxalq sim kartı 15 lariyə əldə edə bilərlər. Kart sonrakı şərtləri nəzərdə tutur:

Əhatə zonası – 200 ölkə;
Pulsuz daxil olan zənglər – 150 ölkə;
Zəng etmək – 0,09 dollar;
Pulsuz daxil olan mətn mesajları – bütün dünyada;
Qısa mesaj göndərmək – 0,05 dollar;
Mobil internet – 140-a qədər ölkə;
GPRS 1 MB – 0,05 dollar;
Daimi nömrə;
Heç bir abonent vergisi yoxdur.

Beynəlxalq sim kartı hər bir istəyi olan, yetkinlik yaşına çatmış vətəndaş Ədliyyə Evinin bütün filiallarında əldə edə bilər.

## TİFLİS AZƏRBAYCAN TEATRININ AKTYORU VƏ REJİSSORU LİTVADA ÇEXOVUN PYESİNİ SƏHNƏLƏŞDİRİB



H. Əliyev adına Tiflis Dövlət Peşəkar Azərbaycan Dram Teatrının aktyoru və rejissoru Turqay Vəlizadə Litvada Anton Çexovun "Evlilik" pyesini səhnələşdirib. Tamaşanın premyerası fevralın 13-də baş tutub. Xatırladaq ki, bu, Turqay Vəlizadənin Litvada səhnələşdirdiyi sayca üçüncü tamaşadır. Ötən il, iyun ayının 22-də rejissorun Nodar Dumbadzenin "Didro" əsəri əsasında səhnələşdirdiyi tamaşanın premyerası olmuşdu. Bundan əlavə rejissorun özünün hazırladığı və oynadığı monotamaşanın da premyerası maraqla qarşılanmışdı.

"Tamaşanın premyerası böyük uğurla və anşlaqla keçdi.Bu il Avropanın başqa ölkələrində də tamaşalar hazırlamaq planlarım var", – deyə gənc rejissor "Yeni Yol" qəzetinə bildirib.

## BGMİ VƏ GYMD-NİN BİRGƏ NƏŞR ETDİRDİKLƏRİ 13 ADDA KİTABIN TƏQDİMATI OLUB

14 fevral tarixində Bütün Gürcüstan Müsəlmanları İdarəsi ilə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının birgə nəşr etdirdikləri "Dəlilləri ilə İslam elmihalı", "Sual-cavablı dini biliklər", "Haqqa həsr olunmuş gənclik", " Gənc Peyğəmbər və gənc dostları", "Peyğəmbərimiz və gündəlik həyatı", "Könüllər sultanı Əfəndimizə məhəbbət", "Əsmai-hüsna", "40 hədis", "Hekayələrlə hikmətlər", "Aktual dini məsələlər", "İmam Cəfəri Sadiq", "Peyğəmbərimizin qohumları xanım səhabələr" və "Müsəlmanın cib kitabı" adlı kitabların təqdimat mərasimi keçirilib.

Təqdimatda çıxış edən Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Yasin Əliyev Gürcüstandakı müsəlmanların bu cür kitablara ehtiyaclarının olduğunu nəzərə alaraq kitabları nəşr etdirdiklərini bildirib. Müfti vurğulayıb ki, nəşr olunmuş kitablar müsəlmanların doğru yoldan ayrılmayacaqlarına vəsilə olacaq. O, həmçinin kitabların nəşrində əməyi keçən hər bir şəxsə təşəkkür edib.



Təqdimatda kitabları nəşrə hazırlayan Hacı Bəkiroğluna və dizayneri Elsevər Əhmədova təşəkkürnamə verilib. Eyni zamanda GMİ-nin nəzdində fəliyyət göstərən "ÜMMƏTMEDİA" internet televiziyasının operatoru və montajçısı Elmar Eminov da təşəkkürnamə ilə təltif olunub. Sonda tədbir iştirakçılarına nəşr olunan kitablardan hədiyyə olunub.

## GÜRCÜSTAN AZƏRBAYCAN VƏ TÜRKİYƏ İLƏ PARLAMENTLƏRARASI ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİNİ DƏSTƏKLƏYİR

"Gürcüstan, Azərbaycan və Türkiyə parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli əməkdaşlıq formatı ölkələr arasında aktual məsələlərin müzakirəsi üçün yaxşı imkandır". Bunu Gürcüstan parlamentinin Xarici əlaqələr üzrə komitəsinin sədri Sofio Katsarava deyib.

O bildirib ki, Türkiyə və Azərbaycan Gürcüstanın strateji tərəfdaşlarıdır və parlamentlər səviyyəsində sıx əməkdaşlığın intensivləşdirilməsini dəstəkləyir: "Hər üç ölkə parlamentinin xarici əlaqələr komitələrinin Ankarada keçiriləcək görüşündə müdafiə və təhlükəsizlik, ticarət, iqtisadiyyat, energetika, nəqliyyat sahələri üzrə əməkdaşlıq məsələləri müzakirə olunacaq. Görüşdə həmçinin əlaqələrin daha da genişləndirilməsi ilə bağlı perspektiv və planlar da nəzərdən keçiriləcək".

Qeyd edək ki, üç ölkənin parlamentlərinin xarici əlaqələr komitələrinin bu həftə ərzində Ankarada keçiriləcək görüşü çərçivəsində əməkdaşlığa dair sənəd imzalanacaq. Nümayəndə heyətləri həmçinin Türkiyənin baş naziri Binəli Yıldırım, parlamentin spikeri İsmayıl Qəhrəman və digər rəsmi şəxslərlə görüşəcək.

## GYMD-NİN NƏZDİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN DİL KURSLARININ TƏLƏBƏLƏRİ TƏŞƏKKÜRNAMƏLƏRLƏ TƏLTİF OLUNUB



22 fevral tarixində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşkilatçılığı ilə keçirilən Xocalı faciəsinə həsr olunmuş tədbirdə aktiv iştiraklarına görə, GYMD-nin nəzdində fəaliyyət göstərən dil kurslarının tələbələrinə təşkilat tərəfindən təşəkkürnamələr təqdim olunub.

## "STADLER" ŞİRKƏTİ GÜRCÜSTANDA VAQON İSTEHSALI ZAVODU İNŞA EDƏCƏK



İsveçrənin "Stadler Rail AG" şirkəti Gürcüstanda vaqon istehsalı və təmiri zavodu inşa edəcək.

Bu barədə şirkətin prezidenti Peter Şpulerlə Gürcüstan baş naziri Giorgi Kvirikaşvili arasında keçirilmiş görüşdə bildirilib.

Görüşdə qeyd olunub ki, zavod "Gürcüstan Dəmir Yolları" şirkətini və Tbilisi metrosunu vaqonlarla təmin edəcək. Müəssisə ixrac sifarişləri də qəbul edəcək.

Zavodun inşası üçün Tbilisi ətrafında yerləşən torpaq sahələri nəzərdən keçirilir.

Qeyd edək ki, ötən il "Stadler Rail AG" şirkəti Gürcüstana investisiya yatırmağa maraq göstərib. Bununla bağlı şirkətlə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi arasında memorandum imzalanıb.

## SUÇİÇƏYİ XƏSTƏLİYİNDƏN UŞAQ DÜNYASINI DƏYİŞİB

Tbilisi şəhərində 56 saylı bağçada tərbiyə olunan uşaq suçiçəyi xəstəliyindən ölüb.

Uşaq sağlamlıq durumu ağırlaşdığına görə bu ayın əvvəlindən bağçaya gəlməyib.

Gürcüstanın səhiyyə naziri David Sergeyenko bildirib ki, uşağın ölümünə suçiçəyi xəstəliyinin ağır forması səbəb olub.

Qeyd edək ki, bu günlərdə Gürcüstanın İctimai Sağlamlıq və Xəstəliklərə Nəzarət Milli Mərkəzi ölkədə qızılca epidemiyası təhlükəsinin olduğunu bildirib. Mərkəzin məlumatına əsasən, Gürcüstanda 268 qızılca xəstəsi qeydə alınıb. Yoluxmaların 70%-i Acarıstan Muxtar Respublikasının payına düşür. Tbilisidə də qızılcaya yoluxma hallarının sayı artmaqdadır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.